2022.- 28 may.- S. 32.
Ədəbiyyat qəzeti

# "Qordi düynü" kitabının təqdimatı




Sumqayıt Poeziya Evində gənc yazıçı, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin tələbəsi Gülnaz Nağızadənin növbəti kitabının - "Qordi düyünü" romanının təqdimat və imza günü keçirilib. Tədbiri giriş sözü ilə açan Poeziya Evinin direktoru, şair İbrahim İlyaslı tədbir iştirakçılarını salamladıqdan sonra, əvvəlcə Gülnaz Nağızadənin hələ məktəbli ikən qələmə aldığı "Xoşbəxtlik qapını döyür" və "Femidanın gözləri" əsərlərindən söz açıb. Həmin kitabların ədəbi ictimaiyyət və oxucular tərəfindən maraqla qarşılandığını söyləyib, müəllifin yeni əsəri - "Qordi düyünü" romanı haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib.

Sonra çıxış üçün söz Azərbaycan Yazıçılar Birliyinin katibi Elçin Hüseynbəyliyə verilib. Elçin Hüseynbəyli kitabın Masallı Gənclər Evində keçirilmiş təqdimatında da iştirak etdiyini, Gülnazın perspektivli bir gənc yazar olduğunu qeyd edib. Onun yeni əsərinin də aktual bir mövzunu əhatə etdiyini söyləyib.

Milli Məclisin Mədəniyyət Komitəsinin eksperti Əkbər Qoşalı tədbir iştirakçılarına və Gülnaz Nağızadəyə komitənin sədri, millət vəkili Qənirə Paşayevanın salamlarını çatdırıb. Müəllifi yeni kitabının işıq üzü görməsi münasibətilə təbrik edib və ona yeni yaradıcılıq uğurları diləyib.

Dünya Gənc Türk Yazarları Birliyinin (DGTYB) başkanı İntiqam Yaşar Gülnaz Nağızadənin əsərlərini yüksək dəyərləndirdiyini deyib və onun DGTYB üzlüyünə qəbul olunduğunu qeyd edərək, üzvlük vəsiqəsini gənc yazara təqdim edib.

Sumqayıt şəhər İcra Hakimiyyətinin şöbə müdiri Fərman Kazımzadə, Abşeron-Xızı Regional Təhsil İdarəsinin əməkdaşı Gülbahar Haqverdiyeva, gənc yazarın təhsil aldığı Sumqayıt şəhərindəki 12 saylı orta məktəbin və tələbəsi olduğu BDU-nun müəllimləri Gülnaz Nağızadənin təhsildə qazandığı uğurlarla bərabər, həm də istedadlı bir yazar olduğunu söyləyib, ona yaradıcılıq uğurları diləyiblər.



Tədbirdə iştirak edən millət vəkilləri Musa Qasımlı və Anar İsgəndərov Gülnaz Nağızadəni təbrik edib, onu gələcəyin böyük yazıçısı kimi görmək istədiklərindən, eyni zamanda dövlət tərəfindən istedadlı gənc yazarlara olan diqqət və qayğıdan söz açıblar.

Hüquq-mühafizə və məhkəmə orqanlarında çalışan dəyərli insanların da tədbirdə iştirakı və çıxışları maraqla qarşılandı. Beyləqan rayon Məhkəməsinin sədri Ramiz Nurullayev, Lənkəran Regional Mediasiya Təşkilatının rəhbəri Ramin Şükürov, ehtiyatda olan hərbçi, polkovnik Mürşüd Babayev gənc yazarın belə bir mövzuya müraciət etməsini və detektiv janrda yazılmış romanın süjetini dəyərləndirməklə onun gələcəkdə həm də yaxşı bir hüquqşünas olacağını deyiblər.

Sumqayıtlı yazarlardan, prezidentin fərdi təqaüdçüsü, şair Ofelya Babayeva, filologiya elmləri doktoru, şair Rafiq Yusifoğlu, AYB Qubadlı Regional Bölməsinin sədri, bədihəçi-şair Namiq Mənа, AYB Sumqayıt Bölməsinin məsləhətçisi, şair Xatirə Fərəcli, AYB Sumqayıt Bölməsinin sədri, şair Rafiq Oday, Şahin Şəfiyev və başqaları gənc yazara yaradıcılıq uğurları diləyiblər.

Şair Fəxrəddin Teyyubun gənc yazarın istedadından duyğulanaraq ona həsr etdiyi şeiri söyləməsi, professor, tənqidçi, eyni zamanda Gülnaz Nağızadənin ikinci kitabının redaktoru Vaqif Yusiflinin roman haqqında ətraflı çıxışı tədbir iştirakçıları tərəfindən maraqla dinlənilib.

Çıxışlardan sonra gənc yazıçının atası Nasir Nağıyevin səmimi çıxışı, qızı ilə qürur duyduğunu, onun bu istedadı ilə fəxr etməsini söyləməsi alqışlarla qarşılanıb.

Sonda Gülnaz Nağızadə tədbirin təşkilatçılarına, iştirakçılarına təşəkkürünü bildirib və oxucuların suallarını cavablandırıb.